Ədalət .- 2026.- 16 yanvar (№2).-S.7.

***Murad Köhnəqala***



# Axrınıza çox az qaldı, mollalar!

İranda baş verən ixtişaşlar artıq təkcə etiraz dalğası deyil, minlərlə insanın həyatına son qoyan qanlı bir faciəyə çevrilib. Rəsmi rəqəmlər gizlədilsə də, qeyri-rəsmi məlumatlar bu prosesdə minlərlə etirazçının öldürüldüyünü, on minlərlə insanın isə yaralandığını və həbs olunduğunu göstərir. Küçələrdə axıdılan qan, boğulan səslər və susdurulan etirazlar bu ölkədə hakimiyyətin xalqla hansı dillə danışdığını açıq şəkildə ortaya qoyur.

Bu ixtişaşların yatırılması zamanı istifadə olunan üsullar qəddarlığı, alçaldıcı mahiyyəti və açıq şəkildə qisas xarakteri daşıması ilə seçilir. Kütləvi etirazların dağıdılması prosesində təhlükəsizlik strukturları klassik polis tədbirlərindən çox, hərbi əməliyyatları xatırladan metodlara əl atır. İslam İnqilabı Keşikçiləri Korpusu (Sepah) və ona bağlı ”Bəsic” qrupları təkcə rəsmi formada deyil, həm də mülki geyimli dəstələr şəklində etirazçıların arasına sızaraq qəfil hücumlar təşkil edir. Bu taktikalar kütlə içində qorxu, panika və tam nəzarətsizlik yaratmaq məqsədi daşıyır.

Ən sarsıdıcı məqamlardan biri isə humanitar dəyərlərin açıq şəkildə tapdalanmasıdır. Təcili tibbi yardım maşınlarının və üzərində humanitar simvollar olan nəqliyyat vasitələrinin əməliyyat məqsədilə istifadə olunması, yaralıların daşınmalı olduğu texnikanın repressiya alətinə çevrilməsi tibbi neytrallıq prinsipini yerlə-yeksan edir. Bu addımlar insanlarda artıq heç bir quruma güvən qalmadığını acı şəkildə göstərir.

Müşahidələr və yayılan görüntülər sübut edir ki, güc tətbiqi zamanı atəşlər əsasən insanların həyati vacib nahiyələrinə - başa və bədənin aşağı hissələrinə tuşlanır. Bu fakt, məqsədin sadəcə izdihamı dağıtmaq olmadığını, etirazçıları həm fiziki, həm də mənəvi cəhətdən sındırmaq, alçaltmaq və sıradan çıxarmaq niyyəti güddüyünü açıq şəkildə ortaya qoyur.

Bütün bunlar göstərir ki, İranda etirazlara yanaşma hüquq-mühafizə çərçivəsindən çıxaraq hərbiləşdirilmiş, qorxu və psixoloji təzyiq üzərində qurulmuş bir repressiya modelinə çevrilib. Bu model isə nəinki ölkədaxili qanunları, eyni zamanda beynəlxalq insan haqları prinsiplərini kobud şəkildə pozur və İran cəmiyyətini daha dərin qisasçılığa sürükləyir.